Ədəbiyyat qəzeti
№29-30
10 avqust 2024-cü il


# Yeni kitab - "Tanrılar meşəsi"




XX əsr Litva ədəbiyyatının məşhur klassiki, görkəmli nasir, dramaturq, şair, tərcüməçi, ədəbi tənqidçi və teatrşünas Balis Sruoganın (1896-1947) "Tanrılar meşəsi" adlı romanı işıq üzü görüb. Əsərin müəllifi 1943-1945-ci illərdə Ştutthof alman konslagerində həbsdə olmuş və burada dəhşətli əzablar yaşamış yazıçıdır. O, romanda şahidi olduğu hadisələri, məhbus həyatında yaşadığı qeyri-insani işgəncələri və digər tükürpədici həqiqətləri sənədli ədəbiyyat və bədii üslubun qovuşağında təqdim edir.

Balis Sruogan yaradıcılığı ilk dəfədir ki, Azərbaycan dilində oxuculara təqdim olunur.

Litva dilindən tərcümə edəni, xüsusi redaktoru, qeydlərin və ön sözün müəllifi yazıçı-tərcüməçi Mahir Həmzəyev, redaktoru Ayaz Əhmədovdur.

Kitab Litva Əhalisinin Soyqırımı və Müqavimət Hərəkatını Araşdırma Mərkəzi ilə Litva Azərbaycanlıları Cəmiyyətinin birgə beynəlxalq layihəsi çərçivəsində Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzində nəşr edilib.

"Tanrılar meşəsi" dünya memuar ədəbiyyatında Hitler konslagerləri haqqında yazılmış ən orijinal əsərlərdən biridir.

AYB.az